# Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru tələbələrlə görüşüb

## Qarşıdan gələn imtahanlarda tələbələrin biliyinin tam şəffaf şəkildə qiymətləndirilməsinin təmin olunacağı vurğulanıb





Aprelin 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov kollecin tələbələri ilə görüşüb.

Görüşdə çıxış edən Qulu Novruzov ölkə başçısı İlham Əliyev tərəfindən Azərbaycan elminin və təhsilinin inkişafı istiqamətində görülən məqsədyönlü işlərdən danışıb. Qeyd edilib ki, dövlət başçısının imzaladığı müvafiq sərəncamlar elmə və təhsilə göstərdiyi ən böyük diqqət və qayğının parlaq nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan əsas hədəflərə toxunan direktor sənəddə təhsil müəssisələrində tədris prosesinin təkmilləşdirilməsi ilə bağlı müddəaların öz əksini tapdığını deyib.

Q.Novruzov bu gün Azərbaycanda yaddaş məktəbindən təfəkkür məktəbinə keçid dövründə daha bir əhəmiyyətli məsələnin kollecdə biliklərin obyektiv qiymətləndirilməsi olduğunu qeyd edərək qarşıdan gələn imtahanlarda tələbələrin biliyinin tam şəffaf şəkildə qiymətləndirilməsinin təmin olunacağını vurğulayıb. Bu prosesdə o, tələbələrin yalnız öz biliklərinə, savadına güvənməli olduğunu diqqətə çatdırıb.

Qulu Novruzov daha sonra hamının son vaxtlar diqqətdə saxladığı Ağ Evin saytında Azərbaycanın işğal altında olan torpaqlarının geri qaytarılması üçün petisiya-imza toplama kampaniyası ilə bağlı məsələyə də toxunub, tələbələri Azərbaycan üçün əhəmiyyətli olan bu layihədə daha fəal olmaqla vətəndaşlıq borclarını yerinə yetirməyə çağırıb. Son vaxtlar Azərbaycan Ordusunun cəbhə xəttində əldə etdiyi qələbələrin öz torpaqlarımızdan və onun azad edilməsi uğrunda mübarizədən əl çəkməyəcəyimizi göstərdiyini qeyd edib. Tələbələrin beynəlxalq təşkilatların bu torpaqların işğalını unutdurmaq cəhdlərinin qarşısına sədd çəkərək məsələyə diqqətin daha da artırılmasında rolunun böyük əhəmiyyət kəsb etdiyini söyləyib, bununla bağlı fikir və mülahizələrini bölüşüb.

Görüşdə Qulu Novruzov daha sonra tələbələri maraqlandıran sualları cavablandıraraq, onların istək və arzularını dinləyib, belə tədbirlərin mütəmadi keçiriləcəyini bildirib.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*